# “LOĞMAN” SURƏSİNDƏ İNSANIN ETİK-MƏNƏVİ DƏYƏRLƏRİ

## (Ayətullah Cəfər Sübhaninin “Loğman surəsinin təfsiri” əsəri kontekstində)

**Müəllif**: Dr. İbrahim Zöhrab oğlu Quliyev (Azərbaycan)[1]

**Məqalənin qısa xülasəsi**

Məqalədə, dəyərli alim Ayətullah Cəfər Sübhaninin yazdığı “Loğman surəsinin təfsiri” adlı məşhur əsəri araşdırılmış, Loğmanın (ə) görünüşü, əxlaqi xüsusiyyətləri, məqamı, sənəti, vətəni haqda məlumat verilmişdir. Həmçinin Loğman surəsinin nazil olma yeri, nazil olma səbəbi, surənin əsas hədəfi barədə ətaflı araşdırma aparılaraq geniş bəhs edilmidir.

## Giriş

Dəyərli alim Cəfər Sübhani (doğ. 1928) yazdığı “Loğman surəsinin təfsiri” adlı məşhur əsərində insanın tərbiyəvi xüsusiyyətindən, onun kamilliyə yetişməsində ən mühüm amillərdən biri kimi tərbiyənin rolundan bəhs etmişdir. Müəllif adını qeyd etdiyimiz əsərə ilk öncə müqəddimə yazmış, burada tərbiyə sözünün lüğəvi və əxlaqi-fəlsəfi mənaları, tərbiyəçinin əsas xüsusiyyətləri, insanın etik-mənəvi dəyərləri, insanın mənəvi təkamülünün yolları və s. haqqında geniş məlumatlar vermişdir.

Müqəddimədən sonra “Loğman” surəsinin mahiyyəti, surənin nazil olduğu yeri, surənin hədəfi, əsas xüsusiyyətləri, onun tərbiyəvi əhəmiyyəti, bir sözlə bu surənin tarix boyu insanların mənəvi mədəniyyətinin formalaşmasında və kamilləşməsindəki rolundan bəhs etmişdir.

---

1. Fəlsəfə üzrə fəlsəfə doktoru, Bakı İslam Universitetinin müəllimi, Bakı, Azərbaycan, quliyev.ibrahim.78@mail.ru

Müəllif surənin təfsirini yazarkən surənin ilk ayəsinin "müqəttəə" hərflərindən ibarət olduğunu, bu haqda təfsir əhlinin ümumi fikir və nəzəriyyələrindən bəhs etmiş və daha sonra isə sözü gedən ayəni hədisi-şəriflər əsasında izah etməyə çalışmışdır. O, bu ayəni izah edərkən X əsrin dahi hədisşünaslarından olan Şeyx Səduqun (915-991) belə nəql etdiyini yazır:

"Qüreyş və yəhudilər Qurana töhmət vuraraq onu bir cadu hesab edirdilər. Lakin Allah "Əlif. Lam. Mim. Zalikəl-Kitab", – deyə buyurmuşdur. Yəni, ey Məhəmməd, sənə nazil etdiyimiz bu kitab hərflərdən - əlif, lam, mim – təşkil edilib. Sizə göndərilən bu kitab, danışdığınız dildə nazil edilib. Əgər doğru deyirsinizsə, qalxın, bir-birinizə kömək etməklə onun qarşısını alın." (1, səh. 19).

## Surənin adı

Surənin adı Loğmanın (ə) şərəfinə onun adı ilə adlandırılmışdır. Çünki adı çəkilən surədə Loğmanın (ə) öz oğluna etdiyi nəsihətlərdən bəhs edilir. Xatırladaq ki, təfsir kitablarında bu surənin yalnız bir adı keçir. Halbuki başqa surələrin əksəriyyətinin bir neçə adının olması məlumdur. Nazil olma ardıcıllığı baxımından isə bu surə 57-ci surə hesab olunur. O "Səba" surəsindən əvvəl, "əs-Saffat" surəsindən isə sonra nazil olmuşdur. (2, c. XXI, səh. 137-138).

Loğmanın (ə) kimliyinə gəldikdə isə, onun haqqında Əhməd bin Ömər əl-Qürtubinin (öl. 1258) verdiyi məlumata görə o, Əykə əhlindəndir. (3, c. XVI, səh. 50).

Loğmanın adının etimologiyası haqqında təfsirçilər müxtəlif fikirlər söyləyirlər. Bəzi alimlərə görə "Loğman" sözü ərəb mənşəli, digərlərinə görə isə, ərəbləşmiş əcnəbi sözüdür. (2, c. XXI, səh. 151).

Onun nəsəbi haqqında iki məşhur fikir vardır. Birincisi budur ki, o, Loğman bin Baura bin Nahur bin Tarixdir (İbrahim peyğəmbərin (ə) qardaşı). İkinci görüşə görə isə, Loğman bin Ənqa bin Sərurdur (Əyyub peyğəmbərin (ə) bacısı oğlu və ya xalası oğlu) (3, c. XVI, səh. 467).

**Loğmanın (ə) görünüşü**
Əksər hədislər Loğmanın (ə) qaradərili, zənci, dodaqları iri, pəncəli və balacaboylu olduğunu bildirir. (4, c. XI, səh. 624).

**Loğmanın (ə) əxlaqi xüsusiyyətləri**
Loğmanın (ə) əxlaqi xüsusiyyətləri qeyd etdiyimiz surə ilə yanaşı, bir çox hədisi-şəriflərdə də öz əksini tapmışdır. O, hədislərdə öz dövrünün insanlarının ən yaxşısı, yumşaq sözlüsü, mülayim qəlblisi, iffətlisi, əmanətdarı, ən ağıllısı, natiqlik məharətinə malik olan şəxsi kimi xarakterizə olunur. (4, c. XI, səh. 630).

**Loğmanın məqamı**
Loğmanın (ə) peyğəmbər olub olmaması haqqında müsəlman mənbələrində nəql olunmuş hədislər ziddiyyətlidir. Nəql olunmuş hədislərin çoxuna görə o, peyğəmbər olmamışdır. Amma İkrimə və Şəbi kimi alimlərə görə o, peyğəmbər imiş.

**Loğmanın sənəti**
Onun sənəti haqqında da ixtilaf var. Bəziləri onun dülgər, bəziləri dərzi, bəziləri isə onun bəni-İsrailin qazısı olduğu görüşündədirlər. (5, c. VII, səh. 181).

**Loğmanın (ə) vətəni**
Onun haralı olması haqqında müxtəlif fikirlər vardır. İbn Abbas onun həbəşli bir qul olduğunu, İbn Müsəyyib isə onun misirli olduğunu söyləmişdir. (6, c. XVIII, səh. 546).

Loğmanın (ə) peyğəmbər olub olmamasından asılı olmayaraq Qurani-kərimi onu xüsusi fəxarətlə yad etmiş, ona elm və hikmətin verildiyini vurğulamış, Loğmanın (ə) xüsusi məziyyət və əxlaqa sahib olduğunu önə çəkmişdir. O, təkcə Quran və hədisdə deyil, o cümlədən dünya fəlsəfi fikir mədəniyyəti tarixində də özünəməxsus yer eləmiş nadir şəxslərdəndir. Mənbələr onun çoxlu hikmətli kəlamlarından ibarət kitabın olmasını da qeyd edirlər. (2, c. XXI, səh. 150).

Onun nəsihətli sözləri haqqında aşağıdakı mənbələrə müraciət etmək olar (5, c. VII, səh. 181).

## Surənin ayə sayı

“Loğman” surəsinin sayı haqqında təfsir əhli müxtəlif fikirlər irəli sürmüşlər. Məkkə və Mədinə əhlinə görə, surə 33 ayədən, Bəsrə, Kufə və Şam alimlərinə görə isə, 34 ayədən ibarətdir. (2, c. XXI, səh. 138).

## Surənin nazil olma yeri

Təfsir alimlərinə görə “Loğman” surəsinin iki ayəsini çıxmaq şərtilə qalan bütün ayələri Məkkədə nazil olmuşdur. Qətadən nəql olunmuş bir hədisə üstünlük verən alimlər onun iki ayəsini, İbn Abbasdan gələn rəvayətə əsaslanan alimlər isə surənin 27-28-ci ayələrini istisna tutaraq onun Məkkədə nazil olduğunu qeyd etmişlər. (3, c. XVI, səh. 468).

Cəfər Sübhani də surənin Məkkədə nazil olduğunu və buna görə də Məkki surələrindən sayıldığını qeyd etsə də, bəzi təfsirçilərə görə onun 27, 28 və 29-cu ayələrinin isə Mədinədə nazil olduğunu bildirir. Lakin təfsirçilərin bu fikirləri ilə tam razılaşmayan müəllif, o ayələrin də Məkkədə nazil olmasını qeyd etmişdir. (1, səh. 19).

## Surənin nazil olma səbəbi

Surənin nazil olma səbəbinə gəldikdə, təfsir kitablarında onun Nəzr bin Haris haqqında olduğunu yazırlar.

Xatırladaq ki, Nəzr bin Haris əcnəbi kitabları, xüsusilə də fars ədəbiyyatına aid kitabları alaraq oradakı “Rüstəm və İsfəndiyar” haqqındakı dastanları qüreyşlilərə danışarmış. Onun belə dastanları nəql etməkdə məqsədi isə Peyğəmbərimizin (s) sözlərini batil etmək, ona qarşı cəbhə açmaq olmuşdur.

Çünki mənbələr Nəzrin: “Məhəmməd sizə Ad və Səmud qövmlərindən danışdığı kimi, mən də sizə “Rüstəm, İsfəndiyar və Bəhram”dan danışıram” – dediyini nəql edirlər.

Bu surə nazil olmaqla Nəzr kimilərin sözlərini batil etmiş və Qurani-kərimin keçmiş dastanları nəql etməkdə məqsədinin insanları təlim-tərbiyəyə cəlb etmək, onların mənəvi dünyasının zənginləşdirilməsini izah etməyə çalışmışıdr.

Bəzi təfsirçilərə görə isə, surənin nazil olmasına əsas səbəb qüreyşlilərin Peyğəmbərdən (s) Loğman (ə) haqqında etdikləri sualdır. (2, c. XXI, səh. 138).

Digər təfsirçilər isə, Nəsr bin Hərsin haqqında nazil olmuşdur. (7, c. XI, səh. 169).

Bunu Cəfə Sübhani də qeyd etmişdir. (1, səh. 29).

**Surənin əsas hədəfi**

Qeyd etdiyimiz kimi, surə mənəvi-əxlaqi məsələlərdən, xüsusilə də valideyn-övlad münasibətlərindən bəhs edir. Burada daha çox diqqət övladın necə böyüdülməsi, ona necə tərbiyə verilməsi, tərbiyə zamanı hansı üsullardan istifadə edilməsindən söhbət açılır.

Loğmanın (ə) öz oğluna etdiyi nəsihətdə onun çox mötədil olduğu, təmsillərdən istifadə etdiyi və çox yumşaq, başa düşülən tərzdə öz oğluna tərbiyə verdiyini görürük. Həmçinin, surədə bütövlükdə bəyənilmiş və ictimai əxlaqdan da geniş bəhs edilmişdir.

Həmçinin, surədə bəhs edilən əsas mövzular Allahın işlərinin hikmətli olması, Loğmanın (ə) öz oğluna nəsihətləri, Nəzr bin Harisin boş-boğaz söhbətləri, müşriklərin işləri, İslam dininin məziyyətləri, Qurana qarşı gələnləri rədd etmək, şeytanın işlərindən xəbərdarlıq, Loğmanın (ə) qissəsinin əsas mahiyyəti və s. haqqında söhbət açılıb.

Bütün bu xüsusiyyətlərlə yanaşı, Cəfər Sübhani surənin əsas hədəfinin şirk və çoxallahlıqla mübarizə olduğunu, diqqətin daha çox Allaha və axirət gününə yönəldildiyini yazır. (1, səh. 15).

## Surənin məqsədi

Surə insanların şirki tərk edib İslama yönəlmələri və insanların mənəvi mədəniyyətlərini zənginləşdirmək üçün nazil olmuşdur. Çünki onun nazil olduğu dövrdə ata-analar uşaqlarına təzyiq edir, kölələr ağalarının təzyiqinə məruz qalırdılar. Quranın insanları özünə cəlb edən ilahi üslubu qarşısında çarəsiz qalan müşriklər müxtəlif yollara baş vururdular. Bunlardan biri də yuxarıda qeyd etdiyimiz kimi, Nəzr İbn Hərisdir.

Surə insanları haqq yoldan sapdıran, həqiqəti boş sözlərlə dəyişdirən və Allahın ayələriylə lağ edənlərin vəziyyətlərini təhdidedici bir üslubla ortaya qoyaraq, onların axirətdə uğrayacaqları rüsvayedici əzaba toxunaraq bəyan edir: "İnsanlar içərisində eləsi də vardır ki, nadanlığı üzündən (tutduğu işin günahını anlamadan xalqı) Allah yolundan (islam dinindən) döndərmək və bu minvalla onu məsxərəyə qoymaq üçün mənasız (oyun-oyuncaq) sözləri satın alarlar. Məhz belələrini alçaldıcı bir əzab gözləyir." (8, Loğman, 6).

Sözü gedən ayəni izah edən müəllif İslam müxaliflərinin Peyğəmbərlə (s) mübarizə aparmaq üçün ona töhmət vurmaları, onun tərəfdarlarının incidilməsi, keçmiş əfsanələri danışmaqla insanları Quranın maarifindən uzaqlaşdırılması, belə mənfur əməllərin dövrümüzdə də davam etdiyini, bəzi əyləncə vasitələri ilə insanların əxlaqının pozulması, şüurlu şəkildə yaradılmış kazino, bar və digər mərkəzlərin cavanların tərbiyəsini pozmasındakı rolunu və həmçinin bəzi serialların da insanların mənəviyyatına vurduğu zərbələrdən bəhs etmişdir. (1, səh. 29-31).

Loğmana (ə) hikmətin verilməsi ilə davam edən surə, ilk olaraq hikmətin mahiyyətinin nəyi tələb etdiyi: "Həqiqətən, Loğmana: "Allaha şükür et!" (deyə) hikmət verdik. Kim (Allahın nemətlərinə) şükür etsə, özü üçün şükür edər.

Kim nankor olsa, (bilsin ki) Allah onun şükürünə möhtac deyildir, (özlüyündə) şükürə (tərifə) layiqdir! (Onun bütün işləri bəyənilәndir!)” (8, Loğman, 12) ifadəsiylə vurğulanmaqdadır. Allahın hər cür nemətinə qarşı Ona şükr etmək hikmətlə dolu bir hərəkəti ifadə etməkdədir. Bunların ardınca da Loğmanın (ə) oğluna verdiyi nəsihətlər gəlməkdədir. Allah bu ayələrdə insanın ruhi dərinliklərinə xitab edən bir üslubla onu həqiqətləri qavramağa, başa düşməyə çağırır. Bir insan başqalarına öyüd verərkən səmimi olmaya bilər.

Ancaq bir atanın öz oğluna nəsihət verərkən səmimi olmaması mümkün deyil. Çünki ata oğlunun mütləq yaxşılığını istəyir. Bu ayələrlə Allah müsəlman olanların uşaqlarına təzyiq edən məkkəli müşrik ailələrin daxili aləmlərinə də xitab etməkdədir. Loğman (ə) oğluna belə öyüd verir: “..Oğlum! Allaha şərik qoşma. Doğrudan da, Allaha şərik qoşmaq böyük zülmdür! (Ağır günahdır!).” (8, Loğman, 13). Görüldüyü kimi, zülmün ən böyüyü Allaha şirk qoşmaqdır. Bu ayədə uşaqlarına İslamdan dönüb Allaha şirk qoşaraq ən böyük zülmü tələb etmək istəyən məkkəli müşriklərin bunu edərkən, öz uşaqlarına qarşı belə davranmaqla insan fitrətinə nə qədər zidd hərəkət etdiklərini ortaya qoyulmaqdadır.

Müsəlmanlardan ana və atalarına yaxşı davranmaları istənilir, Allaha şükr ilə ana-ataya təşəkkür mövzusu: “Biz insana ata-anasına (yaxşılıq etməyi, valideyninə yaxşı baxmağı, onlarla gözəl davranmağı) tövsiyə etdik” şəklində qeyd edilərək məsələnin əhəmiyyəti vurğulanır.

Surədə diqqəti çəkən xüsusi məqamlardan biri də etiqadın, sağlam əqidənin hər bir şeydən, hətta ata-anadan da əziz olduğudur. Buna işarə edən ayə: “Əgər (ata-anan) bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, (bu işdə) onlara itaət etmə. (Qalan) dünya işlərində onlarla gözəl keçin (onlara itaət et). Tövbə edib Mənə tərəf dönənlərin (islamı qəbul edənlərin) yolunu tut.

Sonra (qiyamət günü) Mənim hüzuruma qayıdacaqsınız. Mən də (dünyada) nə etdiklərinizi (bir-bir) sizə xəbər verəcəyəm!" (8, Loğman, 15) – deyə bəyan edir.

Bunun ardından Allahın hər şeyi əhatəedici elminin əzəmətini bəyan edir və insanın etdiyi əməllərdə nə qədər diqqətli olması lazım olduğu, etdiyi hər şeyin qiyamət günündə necə ən incə detalına qədər ona göstəriləcəyi bildirilərək xəbərdar edir: "(Loğman öyüd-nəsihətinə davam edərək) dedi: "Oğlum, (dünyada gördüyün hər hansı yaxşı, yaxud pis iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın (daşın) içində, yaxud göylərdə və ya yerin təkində olsa da, Allah onu (qiyamət günü) ortaya gətirər (onun haqq-hesabını çəkər). Həqiqətən, Allah lətifdir (bütün incə, nazik işləri biləndir; lütfkardır), (hər şeydən) xəbərdardır!" (8, Loğman, 16) deyən ayədə bunu açıq-aşkar görməkdəyik.

Hər iman sahibinin də yaxşılığı əmr, pisliyi qadağan etmək yolunda bəzən qarşısına çıxması qaçınılmaz olan bir sıra çətinliklərə səbr etməsi lazım olduğu bildirilir. Ayrıca bu yoldakı bir adamın təbliğ əsnasında və gündəlik yaşayışında sözlə etdiyi yaxşılıqları hərəkətləriylə də yaşaması və bunları zay etməməsi üçün ona bir davranış şəkli göstərilir və Allah insanları kiçik hesab edib şeytanın xüsusiyyətlərindən olan qürur xəstəliyindən çəkinməsini vəhy: "Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma.

Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz! Yerişində müvazinət gözlə (nə çox yeyin, nə də çox asta get) və (danışında) səsini qaldırma. Çünki ən çirkin səs uzunqulaq səsidir!" (8, Loğman, 18-19) ilə bildirir.

Həmçinin surədə gecənin gündüzü, gündüzün gecəni əvəz etməsi, günəşin və ayın öz orbitlərində bir nizam-intizam içində gəlib getməsi, ayrıca kainat daxilində axıb gedən digər bütün ulduzların Allahdan başqa heç kimin bilmədiyi və bilməyəcəyi bir çərçivə daxilində hərəkət etmələri göstərilərək insanı düşünməyə dəvət edilir.

Surənin sonuna doğru böyük bəlaların insanları necə fitrətlərinin tələb etdiyi şəkildə düşünməyə göndərdiyi izah edilərək belə bir misal verilir: "(Kafirləri) ətrafına kölgə salan uca dağlar (yaxud qara buludlar) kimi dalğalar bürüdüyü zaman onlar dini (ibadəti) Allaha məxsus edərək yalnız Ona dua edərlər.

Allah onları sağ-salamat quruya çıxartdıqda içərilərindən bəziləri (küfrlə iman arasında) orta mövqe tutar. (Bəziləri isə öz küfründə qalar). Bizim ayələrimizi yalnız çox xain, nankor olanlar danarlar." (8, Loğman, 32).

Nəticə olaraq bunu qeyd etmək olar ki, görkəmli hədisşünas Cəfər Sübhani yazdığı "Loğman surəsinin təfsiri" əsərində bəşəriyyətin mənəvi problemlərindən, İslam düşmənlərinin İslama və müsəlmanlara zərbə vurmaq üçün istifadə etdikləri vasitələrdən, daha sonra isə adı keçən surənin elmi əhəmiyyətindən, Ptolomey nəzəriyyəsinin tənəzzülündən, dağların yaranması haqqında Quranın buyurduqları ilə elmi məlumatların üst-üstə düşməsindən və s. geniş şəkildə bəhs etmişdir.

Bunu da xatırladaq ki, dilimizə tərcümə olunan bu əsər müəllifin Qurani-kərimə yazdığı otuz cildlik təfsirindən bir surənin təfsiri idi.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Cəfər Sübhani, Nümunəvi tərbiyəçi: Loğman surəsinin təfsiri, tərc: Niyam Aqil, “Zərdabi LTD MMC” nəşriyyatı, Bakı, 2012.
2. Məhəmməd Tahir bin Aşur, Təfsirüt-təhrir vət-tənvir, əd-darü Tunisiyyə lin-nəşr, XXI cild, Tunis, 1984.
3. Əbu Abdullah Məhəmməd bin Əhməd bin Əbu Bəkr əl-Qürtubi, əl-Cami li əhkamil-Quran, təhqiq: Abdullah bin Əbdülmöhsün ət-Türki, müəssisətür-risalə, I çap, XVI cild, Beyrut, 2006.
4. Cəlaləddin əs-Süyuti, əd-Dürrul-mənsur fi təfsiri bil-məsur, təhqiq: Abdullah bin Əbdülmöhsün ət-Türki, mərkəzi hicr lilbuhus vəd-dirasatil-ərəbiyyə vəl-İslamiyyə, I çap, XI cild, Qahirə, 2003.
5. Həmd bin Yusif (Əbu Həyyan əl-Əndəlusi), Təfsiru bəhril-mühit, təhqiq: Adil Əhməd Əbdülmövcud və başqaları, darül-kütubil-elmiyyə, I çap, cild VII, Beyrut, 1993.
6. Əbu Cəfər Məhəmməd bin Cərir ət-Təbəri, Camiül-bəyan ən təvili ayil-Quran, təhqiq: Abdullah bin Əbdülmöhsün ət-Türki, mərkəzi hicr lilbuhus vəd-dirasatil-ərəbiyyə vəl-İslamiyyə, I çap, XVIII cild, Qahirə, 2001.
7. Cəlaləddin əs-Süyuti, Lübabun-nüqul fi əsbabin-nüzul, IV çap, daru ehyail-ülum, Beyrut, tarixsiz.
8. Qurani-kərim, tərcümə edənlər: Z. Bünyadov və V. Məmmədəliyev, Azərnəşr, Bakı, 1991.
9. Məhəmməd Əbdürrəhim, Mövsuə rəvaiş-şiril-ərəbi, darüt-türasil-camiə, I çap, VIII cild, Beyrut, 2000.